**Nəzrin ATABƏYLİ**
***AMEA Məhəmməd Füzuli Adına***
***Əlyazmalar İnstitutunun magistrantı***
***nezrin.atabeyli@gmail.com***

# NƏSİMİ ƏSƏRLƏRİNİN İSTANBUL KİTABXANA VƏ MUZEYLƏRİNDƏ SAXLANILAN ƏLYAZMA NÜSXƏLƏRİ

***Açar sözlər:*** *İmadəddin Nəsimi, əlyazma, İstanbul, Türkiyə, kitab, muzey, kitabxana*
***Ключевые слова:*** *Имадеддин Насими, рукопись, Стамбул, Турция, книга, музей, библиотека*
***Key words:*** *Imadeddin Nasimi, manuscript, Istanbul, Turkey, book, museum, library*

Şərq dünyasının böyük, dərin köklərə malik olan ədəbiyyatında, eləcə də mədəniyyətində Azərbaycan şairlərinin, alimlərinin, filosof və elm xadimlərinin müstəsna yerləri və xidmətləri vardır. Bütün dünyanı heyrətə gətirən klassik Şərq məfkurəsinin formalaşmasında bu qəbildən olan şəxslərin xidmətləri, rolları hər zaman müşahidə edilmişdir. Özündən sonrakı bütün zamanlarda öz bəşəri idealoji baxışları ilə seçilən belə şəxslərdən biri də əzəmətli Azərbaycan şairi İmadəddin Nəsimidir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsimi, Nizami, Xaqani, Məhsəti, Fələki, Zülfüqar Şirvani, Arif Ərdəbili, Mahmud Şəbüstəri və Marağalı Övhədinin əsərləri ilə tərbiyələnmiş, eyni zamanda Yaxın Şərqin görkəmli şairlərinin: Cəlaləddin Rumi, Rudəki, Sədi, Əttar və başqa klassik şairlərin əsərlərini dərindən öyrənmiş, özü də kiçik yaşlarından yazmağa başlamışdır (4).

Böyük filosof şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şerin özülünü qoymuş, bədii söz sənətimizi forma və məzmunca zənginləşdirmişdir (3). Əsərlərindən son dərəcədə qüvvətli təhsil aldığı məlum olan Nəsimi Azərbaycan, fars və ərəb dillərini bu dillərdə bədii əsərlər yaradacaq qədər dərindən mənimsəmiş və təriqətlər tarixini də mükəmməl tədqiq etmişdir (2).

Özündən sonra zəngin bir ədəbi irs qoyub getmiş Nəsimi insana, insan ləyaqətinə, onun qüdrətinə olan yüksək inamını şeirlərində vəsf etmişdir. İlahi eşqin ecazı ilə qələmə alınmış Nəsimi şeirləri onun sağlığından başlayaraq bütün Şərqdə, daha sonralar isə Avropada, Asiyada və hətta Qərb ölkələrində belə məşhurluq qazanmış, əsərlərinin dəfələrlə üzü köçürülmüş, çap olunmuşdur. Belə olduğu halda Nəsimi şeirləri, Nəsimi əsərləri bütün dünyaya yayılmış, mədrəsələrdə, məktəblərdə, ali təhsil ocaqlarında öyrənilmişdir. Onun "Divan"ları ta orta əsrlərdən başlayaraq günümüzə qədər kitabxanaların ən qiymətli, ən dəyərli kitabına çevrilmiş və bu yolla Nəsimi irsi, Nəsimi işığı bütün dünyaya "səpələnmişdir".

Nəşr olunmuş Şərq və Avropa əlyazma kataloqlarına görə, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin əsərlərinin dünya kitabxana və əlyazma xəzinələrində, muzeylərdə 90-dan çox əlyazma nüsxəsinin mövcudluğu qeyd edilir. Bunlar əsasən İstanbul, Ankara, Kayseri, Konya, Tehran, Vatikan və s. şəhərlərdə mövcud olan əlyazma nüsxələridir. Amma onun əsərlərinin, xüsusilə "Divan"ının digər əlyazma nüsxələrinin üzə çıxacağı ümidilə araşdırmalara başladıqdan sonra biz daha bir neçə nüsxə haqqında məlumat toplaya bildik. Belə ki, müasir informasiya texnologiyalarının bir hissəsi olan internet vasitəsi ilə dünyanın bir çox əlyazma saxlanan muzey və kitabxanalarında qorunan digər nüsxələrin mövcudluğu ilə bağlı məlumatlar əldə etdik. Araşdırmalar zamanı məlum oldu ki, Türkiyənin müxtəlif əlyazma xəzinələrində Nəsimi "Divan"ının 60-dan çox əlyazma nüsxəsi saxlanmaqdadır. Topladığımız məlumatlar nəticəsində aralarında

Manisa, Amasya, Ərzurum, İzmir, Diyarbəkir, Balıkesir, İstanbul, Ankara və s. nüsxələri olmaqla daha çox sayda nüsxə ilə bağlı məlumat əldə edə bildik. Rəqəmsal texnologiyanın bizə yaratmış olduğu şəraitdən yararlanaraq, bu nüsxələrlə yaxından tanış olduq və onlardan bir neçəsinin fotosurətini əldə etmək imkanımız yarandı.

Bundan əvvəlki məqalələrəimizdə Nəsimi əsərlərinin Türkiyə Cümhuriyyəti Ankara Milli Kitabxanasında qorunan əlyazma nüsxələri haqqında məlumat vermişik (1). Nəsimiyə aid çox sayda əlyazma nüsxəsinin mövcudluğunu nəzərə alaraq biz bu məqalədə şairin yalnız İstanbulun müxtəlif muzey və kitabxanalarında saxlanılan əlyazmaları haqqında məlumat verməyi məqsədəuyğun hesab etdik. Şairin əsərlərinin digər əlyazma nüsxələri haqqında isə növbəti tədqiqatlarımızda məlumat verəcəyik.

Məlumatları verərkən əlyazmaların köçürülmə tarixinə əsaslanaraq, xronoloji ardıcıllıq prinsipinə uyğun şəkildə əvvəlcə tarixi məlum olan nüsxələri, sonra isə tarixi məlum olmayan nüsxələri qeyd edirik.

1) İstanbul kitabxanaları, türkcə divanlar kolleksiyası. Şifri: Hekimoğlu Ali Paşa (Millet-Ktb.) 639. Əlyazmanın katibi məlum olmasa da, h.893/M.1487-ci ildə köçürülmüşdür. Hər səhifədə 11 sətir olmaqla incə təliq xətti ilə abadi (orta əsrlərdə Şərqdə tut ağacının liflərindən hazırlanan yüksək keyfiyyətli kağız növü – N.A.) kağızına yazılmışdır. Ölçüsü 17,7x12,5sm, həcmi 171 vərəqdir. Qəhvəyi rəngli meşin bir cild içərisindədir. Bu əlyazma da Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli və qədim nüsxələrindən biridir (5).

2) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Ayasofya Ktb. (SüleymaniyeKtb.) No. 3977. Katibi məlum deyil, h.909/m.1503-cü ildə köçürülmüşdür. Hər səhifədə 17 sətir olmaqla təliq xətti ilə zərəfşan kağıza yazılmışdır. Ölçüsü 25,5x15,5 sm, həcmi 151 vərəqdir. Nəsimi "Divan"ı bu əlyazmanın 85a-236b vərəqlərini əhatə edir. Arxası bez, üstü kağız örtüklü bir cild içərisindədir. Bu nüsxə də şairin azərbaycanca "Divan"ının qədim və irihəcimli nüsxələrindəndir (5).

3) İstanbul,YapıKredi Sermet Çifter Araştırma Kitabxanası, türkcə əlyazmalar kolleksiyası. Şifri: 23/5. Katibi məlum deyil, h.969/m.1561-ci ildə köçürülmüşdür. Hər səhifədə 15 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 18,6x12 sm, həcmi 5 səhifədir. Nəsimiyə aid edilən və azərbaycanca olan "Bəyani-məratibi-süluki-insan" əsəri bu əlyazmanın 21b-23b vərəqlərini əhatə edir (5).

4) İstanbul Topqapı Sarayı Muzeyi, türkcə əlyazmalar kolleksiyası. Şifri: H. 316. Əlyazmanın katibi məlum deyil, h.1024/m.1615-çi ildə köçürülmüşdür. Hər səhifədə 15 sətir olmaqla nəstəliq xətti ilə ahərli (kağızın davamlı, keyfiyyətli olamsı üçün yumurta ağı və nişastadan hazırlanaraq kağıza sürtülən xüsusi maddə – N.A.) kağıza yazılmışdır. Ölçüsü 14x10sm, həcmi 153 vərəqdir. Səhifələrin kənarındakı xətlər qırmızı rənglə verilmişdir. Qəhvəyi dəri cildi var. Qeyd olunan bu nüsxə Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən biridir (5).

5) İstanbul Millət kitabxanası, Əli Əmiri kolleksiyası. Şifri: 34 AeManzum 203. Katibi məlum deyil. H.1165/m. 1752-ci ildə köçürülmüşdür. Hər səhifədə 21 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 21,8x12 sm, həcmi (cəmi) 37 vərəqdir. Yumşaq meşin cildə tutulmuşdur. Əlyazmanın əsasən 8, 87-152, 169 vərəqlərində Nəsiminin çox sayda şeirləri var (5).

6) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Mihrişah Sultan (HüsrevPş.Ktb.) 366. Katibi məlum deyil, h.1236/m.1821-ci ildə köçürülmüşdür. Hər səhifədə 19 sətir olmaqla təliq xətti ilə ahərli kağıza yazılmışdır. Ölçüsü 24x16 sm, həcmi 103 vərəqdir.Əbrulumiqləbli bir cild içərisindədir. Bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən hesab olunur (5).

7) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazma divanlar kolleksiyası. Şifri: O. Ergin 324. Əlyazma nüsxəsi katib Məhməd Arif tərəfindən h.1260/m.1844-cü ildə köçürülmüşdür. Hər səhifədə 21 sətir olmaqla nəsx xətti ilə yerli istehsal olan kağıza köçürülmüşdür. Ölçüsü 24x16,5 sm, həcmi 197 vərəqdir. Bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının

irihəcmli nüsxələrindən biridir (5).

8) İstanbul kitabxanası, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Hacı Mahmud Efendi (SüleymaniyeKtb.) No. 3851. Bu əlyazma Məhməd Arif bin İbrahim Qarahisari tərəfindən h.1260/m.1844-cü ildə köçürülmüşdür. Hər səhifədə 19 sətir olmaqla nəsx xətti ilə abadi kağıza yazılmışdır. Ölçüsü 16x10,5 sm, həcmi 14 vərəqdir. Arxası meşin, üstü yaşıl bez ilə üzlənmiş bir cild içərisindədir. Tam olmayan bu nüsxənin yuxarıda qeyd olunan İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanasında qorunan nüsxə ilə eyni vaxtda köçürülmüş olması ehtimal edilir (5).

9) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgintürkcə əlyazmaları kolleksiyası. Şifri:178. Əlyazma Əli Şöhrəti tərəfindən h.1268/m.1851-ci ildə köçürülmüşdür. Hər səhifədə 21 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 25x18 sm, həcmi 18 vərəqdir. Bu əlyazma Nəsimiyə ai edilən "Əl-Müəddimətül-haqiq" əsərinin bir nüsxəsidir. Əsərin dili azərbaycanca, mövzusu isə İslam dini, təsəvvüf və təriqətlər (5).

10) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 653/3. Əlyazma Məhməd Nuri tərəfindən h.1294/m.1877-ci ildə köçürülmüşdür. Hər səhifədə 17 sətir olmaqla rüqə xətti ilə yazılmışdır. Ölçüsü 20,5x14 sm olan əlyazmanın 101-132 vərəqlərini Nəsimiyə aid edilən "Əl-Müqəddimətül-həqaiq" əsəri əhatə edir. Əsərin dili azərbaycanca, mövzusu isə İslam dini, təsəvvüf və təriqətlərdir (5).

11) İstanbul Süleymaniyyə Əlyazma Əsərlər Kitabxanası, Süleymaniyyə Əli Nihad Tərlan kolleksiyası. Şifri: 34 Sü-Tarlan 162/1. Ömər Əfəndizadə Hacı Əli tərəfindən H.1303/M.1884-cü ildə köçürülmüşdür. Hər səhifədə 20 sətir olmaqla rüqə xətti ilə noxudu Şərq kağızına yazılmışdır. Ölçüsü 20,6x13sm, həcmi 108 vərəqdir. Başlıqları və ərəbcə ibarələr qırmızı mürəkkəblə qeyd olunmuşdur. Karton cildi var. Nəsimiyə aid olunduğu iddia edilən "Müqəddimətül-Həqaiq" əsəri bu əlyazmanın 1b-18b vərəqlərini əhatə edir. Əsərin mövzusu İslam dini və xəlifə Əbu Bəkirə istinad edilən təriqətlərdir (5).

12) İstanbul kitabxanası, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Haşim Paşa (Selim Ağa Ktb.) 97. Katibi məlum deyil, h.1304/m.1886-cı ildə köçürülmüşdür. Rüqə xətti ilə ağ rəngli yerli kağıza yazılmışdır, səhifədəki sətirlərin sayı müxtəlifdir. Ölçüsü 21,5x15,7 sm, həcmi 215 vərəqdir.Arxası soyuq ştampla basılmış, çərçivəli qırmızı meşin, üstü isə qırmızı bezlə üzlənmiş bir cild içərisindədir. Nəsiminin azərbaycanca "Divan"ının böyük nüsxələrindəndir (5).

13) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazma divanlar kolleksiyası. Şifri: Belediye K. 668. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 21 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 250x160 sm, həcmi 220 vərəqdir. Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən biridir (5).

14) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazma divanlar kolleksiyası. Şifri:Belediye K. 90. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 9 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 17,5x10sm, həcmi 206 vərəqdir. Bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən biri hesab edilir (5).

15) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazma divanlar kolleksiyası. Şifri: O. Ergin 193/1. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 19 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 240x170 sm, həcmi 76 vərəqdir (5).

16) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə yazma divanlar kolleksiyası. Şifri: O. Ergin 1152. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 15 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 19,5x12,5 sm, həcmi 62 vərəqdir. Qeyd olunan əlyazma Nəsiminin azərbaycanca "Divan"ının nüsxələrindən biridir (5).

17) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə yazma divanlar kolleksiyası. Şifri: M.Cevdet K. 222. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 13-15 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 20,5x14 sm, həcmi 88 vərəqdir. Bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının nüsxələrindən biridir (5).

18) İstanbul, Qalata Mövləvixanəsi türkcə əlyazmalar kolleksiyası. Şifri: 754. Azərbaycanca olan "Divan"ın katibi və köçürülmə tarixi məlum deyil (5).

19) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: İstanbul Üniversitesi Ktb. No. T. 5677. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 19 sətir olmaqla təliqqırması (şikəstə təliq –N.A.) xətti ilə sarı rəngli samanı kağıza yazılmışdır. Ölçüsü 23x15,5 sm, həcmi 88 vərəqdir. Nəsimi şeirləri bu əlyazmanın 115b-203a səhifələrini əhatə edir.Qırmızı meşin bir cild içərisindədir (5).

20) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Ali Emiri Efendi ManzumEserler (Millet Ktb.) 443. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 17 sətir olmaqla, təliq xətti ilə incə kağıza yazılmışdır. Ölçüsü 21,4x15sm, həcmi 124 vərəqdir. Süni ebru naxışlı kağızla üzlənmiş cild içərisindədir. Qeyd olunan bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən hesab olunur (5).

21) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: Kadızâde Mehmed Efendi (Süleymaniye Ktb.) No. 395/1. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 15 sətir olmaqla təliq xətti ilə ahərli kağıza yazılmışdır. Ölçüsü 16,3x8,5sm, həcmi 100 vərəqdir.Arxası meşin, üstü kağızla üzlənmiş cild içərisindədir (5).

22) İstanbul kitabxanaları, İstanbul kitabxanalarında yerləşən türkcə divanlar kolleksiyası. Şifri: BayezıdUmumiKtb. No. 3353. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 17 sətir olmaqla təliq xətti ilə ahərliAvropa kağızına yazılmışdır. Ölçüsü 23x17 sm, həcmi 223 vərəqdir. Üstü yaşıl qumaşla üzlənmiş qəhvəyi meşin bir cild içərisindədir. Qeyd olunan bu əlyazma da Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən biridir (5).

23) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 1269/11. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 27 sətir olmaqla rüqəxətti ilə ahərli kağıza yazılmışdır. Ölçüsü 16x12,5sm, həcmi 18 vərəqdir. Nəsiminin "Divanı" bu əlyazmanın 157b-175b səhifələrini əhatə edir (5).

24) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 880/5. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 19 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 20,5x13sm olan bu əlyazmanın 38a-39b vərəqlərini Nəsimiyə aid edilən "Qəsidəi-Dövriyə"si əhatə edir (5).

25) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası. Şifri: 656/2. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 25 sətir olmaqla nəsx qırması (şikəstə nəsx – N.A.) xətti ilə yazılmışdır. Ölçüsü 20,5x13,5sm olan bu əlyazmanın 73b-88a vərəqlərini Nəsimiyə aid edilən "Əl-Müqəddimətül-həqaiq" əsəri əhatə edir. Qeyd etmək yerinə düşər ki, bu əsərin mövzusu İslam dini, təsəvvüf və təriqətlərdir (5).

26) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 1324/1. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 13 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 14x95sm olan bu əlyazmanın 1b-43b vərəqlərində Nəsimiyə aid edilən "Əl-Müqəddimətül-həqaiq" əsəri yer alır (5).

27) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 193/1. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 19 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 240x170-180x120 sm, həcmi 77 vərəqdir. Nüsxə Nəsiminin azərbaycanca "Divan"ının yığcam nüsxələrindəndir (5).

28) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, Osman Ərgin türkcə əlyazmaları kolleksiyası. Şifri: 1152. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 15 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 19,5x12,5sm, həcmi 62 vərəqdir. Nüsxə Nəsiminin azərbaycanca "Divan"ının kiçik həcmli nüsxələrindən biridir. Əlyazmanın əvvəli və sonu naqisdir (5).

29) İstanbul, Yapı Kredi Sermet Çifter Araşdırma Kitabxanası türkcə əlyazmaları kolleksiyası. Şifri: 788/4. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 18 sətir olmaqla nəsx xətti ilə ahərli kağıza yazılmışdır. Ölçüsü 23x14 sm.

Nəsiminin kiçikhəcmli bu əlyazmanın "Divan"ı 75b-104a vərəqlərini əhatə edir, azərbaycancadır (5).

30) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazmalar kolleksiyası. Şifri: K.90. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə9 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 17,5x100sm, həcmi 206 vərəqdir. Bu nüsxə də Nəsiminin azərbaycanca "Divan"ının irihəcmli nüsxələrindən biri hesab olunur (5).

31) İstanbul Şəhər Bələdiyyəsi Atatürk Kitabxanası, türkcə əlyazmalar kolleksiyası. Şifri: O.27/2. Katibi və köçürülmə tarixi məlum deyil. Rüqəxətti ilə yazılmışdır. Ölçüsü 24x16,5 sm, həcmi 129 vərəqdir. Əlyazma nüsxəsində Nəsimiyə aid edilən və Azərbaycan dilində qələmə alınmış rübailər yer almaqdadır (5).

32) İstanbul Millət kitabxanası, Əli Əmiri kolleksiyası. Şifri: 34 AeFarsça 438. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 20 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 18,8x10,8 sm, həcmi 78 vərəqdir. Arxası meşin, üst qapağı isə kağızla üzlənmiş, şirazəli cildi vardır. Bu əlyazma Nəsiminin farsca "Divan"ının nüsxəsidir (5).

33) İstanbul Millət kitabxanası, Əli Əmiri kolleksiyası. Şifri: 34 AeFarsça 1006/2. Katibi və köçürülmə tarixi məlum deyil. Hər səhifədə 15 sətir olmaqla təliq xətti ilə yazılmışdır. Ölçüsü 22x13sm, həcmi 9 səhifədir. Nəsimiyə aid olan farsca bir tərcibənd bu əlyazma nüsxəsinin 22b-26b vərəqlərini əhatə edir. Qara meşinlə üzlənmiş müqəvva (qalın gön, dəri) cildi var. Qeyd olunan bu əlyazmanın 120a-148b vərəqlərində isə şairə aid farsca qəzəllər yer alır (5).

34) İstanbul Millət kitabxanası, Əli Əmiri kolleksiyası. Şifri: 34 AeManzum 443. Katibi və köçürülmə məlum deyil. Hər səhifədə 21 sətir olmaqla nəsx xətti ilə yazılmışdır. Ölçüsü 21,8x12 sm, həcmi 37 vərəqdir. Mətn qarara, səhifənin kənarlarındakı xətlər isə qırmızı mürəkkəblə yazılmışdır. Arxası meşin üst qapağı isə əbru təsvirli kağızla üzlənmiş cildi var. Bu əlyazma Nəsiminin azərbaycanca "Divan"ının kiçik bir nüsxəsidir (5).

Biz bu məqalədə İmadəddin Nəsiminin yalnız İstanbulun kitabxana və muzeylərində saxlanılan əsərlərinin əlyazma nüsxələri haqqında ayrı-ayrılıqda az da olsa məlumat verməyə çalışdıq. Lakin şairin əsərləirinin çoxsaylı əlyazma nüsxələri də hələ öz tədqiqat sırasını gözləməkdədir. Onu da qeyd etmək yerinə düşər ki, araşdırma zamanı məlum oldu ki, təkcə Türkiyənin kitabxana və əlyazma saxlanılan mərkəzlərində Nəsimiyə aid 100-ə yaxın nüsxəsi mövcuddur. Daha öncəki tədqiqat işimizdə isə yuxarıda da qeyd etdiyimiz kimi şairin Ankara Milli Kitabxanasında qorunan əlyazma əsərlərinin nüsxələri haqqında məlumat vermişdik. Ümid edirik ki, apardığımız bundan sonrakı araşdırmalar zamanı da İmadəddin Nəsiminin Azərbaycan ədəbiyyatşünaslığı üçün çox böyük əhəmiyyət kəsb edən əsərlərinin bir çox yeni əlyazma nüsxələri də aşkarlanacaqdır.

**Ədəbiyyat**

1. Atabəyli N. "Ankara Milli Kitabxanasında mövcud olan Nəsimi əsərlərinin əlyazmaları", "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" II Beynəlxalq elmi-nəzəri konfransın materialları

2. Araslı H. "Fədakar şair", Bakı, 1942

3. "Mən bu cahana sığmazam" / Ön söz, tərtib, şərh, lüğət və redaktə Əlyar Səfərli. Bakı: Gənclik, 1991, 384 s.

4. İmadəddin N. "Seçilmiş əsərləri". I cild.Bakı: "Lider" nəşriyyatı, 2004.

5. www.yazmalar.gov.tr

**Назрин Атабейли**

**РУКОПИСИ ПОЭТА НАСИМИ КОТОРЫЕ ХРОНЯТСА В МУЗЕЯХ И БИБЛИОТЕКАХ СТАМБУЛА**

**РЕЗЮМЕ**

В данной статье говорится о рукописах великого азербайджанского поэта Насими которые хронятса в музеях и библиотеках Стамбула. Мы посторались дать хоть молейшую информацию об этих рукописях в отдельности.

**Nazrin Atabeyli**

**NASİMİ`S MANUSCRİPTS WHİCH ARE SAVİNG AT THE MUSEUMS AND LİBRARİES OF ISTANBUL**

**SUMMARY**

This article is about the great Azerbaijani poet Nasimi`s manuscripts which are saving at the museums and libraries of Istanbul. We tried to give at least a little bit information about mentioned manuscripts separately.

Rəyçilər: prof.B.V.Allahverdiyev, tar.ü.fəl.dok.L.Q.Abasova